| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 19.12.2018 |
| QEYDİYYAT NÖMRƏSİ | 541 |
| ADI | Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamənin və Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 1999-cu il 15 mart tarixli 41 nömrəli, "İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydalarının təsdiq edilməsi haqqında" 2000-ci il 28 fevral tarixli 27 nömrəli, "Tərbiyə müəssisələrinin nəzdində Himayəçilik Şurasının işinin təşkili və fəaliyyət Qaydasının təsdiq edilməsi haqqında" 2001-ci il 15 yanvar tarixli 16 nömrəli, "Azərbaycan Respublikası Ailə Məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında" 2001-ci il 1 mart tarixli 52 nömrəli, "Uşaq-gənclər idman məktəbləri və ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəblərinin Nümunəvi Nizamnaməsinin təsdiq edilməsi haqqında" 2001-ci il 12 oktyabr tarixli 161 nömrəli, "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər barədə" 2002-ci il 7 noyabr tarixli 174 nömrəli və "Ətrafdakıları vərəmlə yoluxdurmaq təhlükəsi olan şəxslərin işləməsi qadağan olunan peşə və vəzifələrin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2003-cü il 6 dekabr tarixli 157 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Xalq Qəzeti (Dərc olunma tarixi: 22-12-2018, Nəşr Nömrəsi: 289), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-12-2018, Nəşr nömrəsi: 12, Maddə nömrəsi: 2737) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 22.12.2018 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 190.010.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 14201812190541 |

| | |
|---|---|
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **25.12.2018** |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamənin və Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 1999-cu il 15 mart tarixli 41 nömrəli, "İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydalarının təsdiq edilməsi haqqında" 2000-ci il 28 fevral tarixli 27 nömrəli, "Tərbiyə müəssisələrinin nəzdində Himayəçilik Şurasının işinin təşkili və fəaliyyət Qaydasının təsdiq edilməsi haqqında" 2001-ci il 15 yanvar tarixli 16 nömrəli, "Azərbaycan Respublikası Ailə Məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında" 2001-ci il 1 mart tarixli 52 nömrəli, "Uşaq-gənclər idman məktəbləri və ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəblərinin Nümunəvi Nizamnaməsinin təsdiq edilməsi haqqında" 2001-ci il 12 oktyabr tarixli 161 nömrəli, "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər barədə" 2002-ci il 7 noyabr tarixli 174 nömrəlivə "Ətrafdakıları vərəmlə yoluxdurmaq təhlükəsi olan şəxslərin işləməsi qadağan olunan peşə və vəzifələrin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2003-cü il 6 dekabr tarixli 157 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanının 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 3, maddə 197; 2003, 6, maddə 342; 2006, 9, maddə 822, 11, maddə 989; 2008, 2, maddələr 116, 125, 9, maddə 853, 10, maddə 928; 2009, 6, maddə 491; 2010, 8, maddə 764; 2011, 6, maddə 566; 2012, 1, maddə 36, 5, maddə 488, 12, maddə 1352; 2013, 5, maddə 576, 7, maddə 876, 8, maddə 998, 10, maddə 1211, 11, maddə 1463; 2016, 4, maddə 778, 5, maddə 965; 2017, 2, maddələr 276, 299, 5, maddələr 978, 982; 2018, 5, maddə 1120; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 noyabr tarixli 493 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamə"nin 1.7-ci bəndinin "Qeyd"ində "tədris" sözü "təhsil" sözü ilə və "şagirdlər" sözü "tələbələr" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 2, maddə 123; 2005, 11, maddə 1061; 2006, 9, maddə 822; 2008, 2, maddələr 116, 130, 5, maddə 430; 2010, 3, maddə 264; 2011, 5, maddə 449; 2013, 6, maddə 723; 2015, 7, maddə 901) ilə təsdiq edilmiş "İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları"nın 2.12-ci bəndinin birinci və ikinci abzaslarında "ilk peşə-ixtisas" sözləri "peşə" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 15 yanvar tarixli 16 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 1, maddə 65; 2006, 10, maddə 902; 2010, 3, maddə 264) ilə təsdiq edilmiş "Tərbiyə müəssisələrinin nəzdində Himayəçilik Şurasının işinin təşkili və fəaliyyət Qaydası"nın 8-ci hissəsinin "b" bəndində "ilk-peşə ixtisas" sözləri "peşə" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 3, maddə 209; 2002, 3, maddə 148, 10, maddə 635; 2005, 7, maddə 678; 2006, 5, maddə 472, 10, maddə 902; 2010, 3, maddə 264; 2012, 12, maddə 1360; 2014, 12, maddə 1662; 2017, 12 (II kitab), maddə 2526) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının formaları və bu kitablardakı qeydlər əsasında verilən şəhadətnamələrin formaları"nın 1 nömrəli əlavəsinin 18-ci hissəsində hər iki halda, 4 və 7 nömrəli əlavələrinin 8-ci hissələrində hər iki halda və 8 nömrəli əlavəsinin 13-cü hissəsində "ilk peşə-ixtisas" sözləri "peşə" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 oktyabr tarixli 161 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 10, maddə 656; 2006, 5, maddə 463; 2010, 3, maddə 264) ilə təsdiq edilmiş "Uşaq-gənclər idman məktəbləri və ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəblərinin Nümunəvi Nizamnaməsi"nin 2-ci hissəsinin ikinci abzasında "ilk peşə-ixtisas" sözləri "peşə" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 7 noyabr tarixli 174 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, 11, maddə 676; 2004, 2, maddə 115; 2005, 9, maddə 860, 12, maddə 1234; 2006, 2, maddələr 204, 205, 9, maddə 822, 12, maddə 1159; 2007, 8, maddələr 849, 857, 10, maddə 1025; 2008, 1, maddə 37, 10, maddə 928, 12, maddələr 1110, 1114; 2009, 1, maddələr 22, 32, 2, maddə 156, 4, maddə 279, 8, maddə 670, 9, maddələr 739, 754, 12, maddə 1078; 2010, 3, maddə 264; 2011, 1, maddə 63; 2012, 9, maddə 931; 2013, 2, maddə 203, 6, maddə 735; 2014, 10, maddə 1290; 2015, 5, maddə 608, 12, maddə 1567; 2016, 1, maddə 179, 4, maddə 807, 9, maddə 1585; 2018, 8, maddə 1817) ilə təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər"in 12-ci hissəsində "peşə məktəbləri və peşə liseyləri" sözləri "peşə təhsili müəssisələri" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 6 dekabr tarixli 157 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 12 (II kitab), maddə 745; 2010, 3, maddə 264; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 noyabr tarixli 509 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Ətrafdakıları vərəmlə yoluxdurmaq təhlükəsi olan şəxslərin işləməsi qadağan olunan peşə və vəzifələrin Siyahısı"nın 1.3-cü bəndində "ilk peşə-ixtisas" sözləri "peşə" sözü ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 19 dekabr 2018-ci il
541